Volume 25 №2 2023, 31-41
DOI: 10.5782/2218-0346.2023.25.2.31

# Plovdağ nekropollarından tapılmış möhürlər haqqında

**Bəhlul İbrahimli**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
ibrahimlib@mail.ru

**Elvin Əliyev**
AMEA Arxeologiya və Antropologiya İnstitutu
aliyevelvin@yandex.ru

**Açar sözlər:** Azərbaycan, Naxçıvan, Plovdağ, nekropol, daş qutu, silindr möhürü.

**Xülasə.** Son Tunc və Erkən Dəmir dövrünə aid nadir və maraqlı tapıntılardan biri də silindr möhürləridir. Onlar yerli və beynəlxalq ticarətdə, eləcə də müxtəlif malların saxlanmasında və toxunulmadan daşınmasında geniş istifadə edilmişdir. Silindr möhürlər şəxsi idi və oxşar dini süjetlərə baxmayaraq, fərqli əlamətlərə malik idi. Bir möhür digərini təkrarlamırdı. Bu möhürlər müxtəlif sərt materiallardan, xüsusən də mərmərdən, əqiqdən, obsidiandan və digər daşlardan hazırlanırdı. Azərbaycanda Naxçıvanın dəfn abidələrində çoxlu miqdarda (12 ədəd) silindr möhürlər aşkar edilib. Qeyd edək ki, Naxçıvan möhürləri əsasən ağ və krem rəngli mərmərdən və xüsusi gil pastasından hazırlanmışdır. Bu möhürlərin uzunluğu 2,8-3,2 sm-dir. Möhürlərin əksəriyyəti (11 ədəd) Plovdağ II, Plovdağ III, Mərdangöl və Muncuqlutəpə nekropollarının daş qutu qəbirlərində, ölünün sinəsinin qabağında aşkar olunmuşdur. Görünür, möhürlər boyuna asılırmış.

Silindr möhürlərin üzərindəki təsvirlər fərqlidir. Erkən dövrlərə aid möhürlərdə mürəkkəb dini və kult təyinatlı təsvirlər üstünlük təşkil edir. Sonrakı möhürlərdə cərgə ilə müxtəlif vəhşi heyvanlar, quşlar və həndəsi naxışlar həkk edilmişdir. Sadə təsvirli möhürlərin əksəriyyəti yerli naxçıvanlı ustalar tərəfindən hazırlanmışdır.

Tuncdan tökmə üsulu ilə hazırlanmış iki möhür xüsusilə diqqətə-layiqdir. Bu möhürlər dördüzlüdür və yuxarısında halqası vardır. Möhürlərin

qarşı üzləri eyni naxışlarla bəzədilib. Möhürlərin iki üzündə həyat ağacı astral simvollarla (yuxarıda günəş diski ilə bitən üç aypara) verilmişdir. Möhürlərin digər iki tərəfində isə simmetrik şəkildə yerləşən Mesopotamiya üslubunda iki svastika işarəsi vardır.

Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrü qəbir abidələrindən əldə edilən silindr möhürlərinin tədqiqi göstərir ki, Son Tunc dövründə Azərbaycanın qədim tayfaları Aralıq dənizi ölkələri və Mesopotamiya ilə uzunmüddətli iqtisadi, mədəni və ticarət əlaqələri saxlamışdır.

**Giriş.** Son Tunc-Erkən Dəmir dövrünə aid qəbir abidələrindən əldə olunan materiallar içərisində diqqəti cəlb edən və xüsusi əhəmiyyəti olan tapıntılardan biri də möhürlərdir. Möhürlər müxtəlif dövrlərdə, müxtəlif materiallardan, müxtəlif formalarda hazırlanmışdır. Möhürlər içərisində uzun zaman istifadə olunan və geniş yayılanı silindr formalı möhürlərdir. Naxçıvan abidələrində aşkar olunan silindr möhürlər əsasən ağ və krem rəngli mərmərdən və xüsusi gil pastadan hazırlanmışdır. Bu möhürlərin uzunluğu 2,8-3,2 sm-dir. Mərmərdən olan möhürlər çəkisinə görə ağır, xüsusi gildən hazırlanan möhürlər isə nisbətən yüngül olurlar. Bir tarixi fakta əsasən Mesopotamiyada yuxarı təbəqənin və hakimiyyətdə olanların daha çox mərmərdən hazırlanmış möhürlərdən istifadə etdiklərini söyləmək olar. Belə ki, e.ə. III minilliyin ortalarında əyanlar Akkad və Şumerin hökmdarı olmuş Rimuşu silindr möhürlərlə öldürmüşdülər [5]. Əlbəttə, əgər mərmər möhürlər ağır olmasaydı bu sui-qəsdi yerinə yetirmək mümkün olmazdı. Digər tərəfdən mərmər möhürlər keyfiyyətinə görə də üstün idi.

Silindr möhürlər Mesopotamiyada ilk vaxtlar (e.ə. IV minillikdən) daşyonan ustalar tərəfindən hazırlanırdı və zamanla inkişaf edərək daşyonma sənətinin xüsusi sahəsinə çevrilmişdi. Onların bir qismi xüsusi gil növündən hazırlandığına görə möhür hazırlayan ustalardan xüsusi hazırlıq tələb olunurdu. Möhür hazırlayan sənətkarların saray və inzibati binalara yaxın xüsusi emalatxanaları var idi.

Silindr möhürlər təyinatına görə iki məqsədlə istifadə olunurdu və buna görə də onların hazırlanma üsulu fərqli idi. Birinci qrup möhürlər yaş gilin üzərində diyirlətməklə təsvir salmaq üçün istifadə olunurdu. Yaş gil üzərində işlənən möhürlərdə təsvirlər oyma üsulu ilə hazırlanır, möhür yaş gilin üzərinə vurulduqda təsvir qabarıq alınırdı. Bu tip möhürlər gil üzərində yazının inkişaf etdiyi bölgələrdə, xüsusən Mesopotamiyada daha geniş yayılmışdı. İkinci, papirus və ya perqament üzərinə rənglərlə təsvir salmaq üçün hazırlanan möhürlər idi ki, müvafiq olaraq bu möhürlərdə təsvir qabarıq

olduğu üçün müstəviyə basdıqda təsvir əks olurdu. Müasir möhürlər də bu funksiyanı yerinə yetirir. İstifadə üsulundan asılı olaraq möhürlərin hazırlanması da fərqli olurdu.

Silindr möhürlər Uruk (IV minilliyin ortaları) və Cəmdət-Nəsr (3100-2900-cu illər) dövrləri üçün xarakterikdir. İlkin olaraq amulet rolunu oynayan bu silindrik möhürlər sonradan xüsusi mülkiyyət simvoluna çevrildi. Silindr möhürlərin üzərində insan fiqurları, real həyat səhnələri, inanclarla və müxtəlif kultlarla bağlı fiqurlar, əfsanə və eposla bağlı səhnələr (məsələn: "Bilqamıs" əfsanəsindən götürülmüş iki şirə qalib gələn öküz-insan fiquru) təsvir olunmuşdur. Möhür üzərində fiqurlar daha çox "heraldik" kompozisiyada verilirdi [6]. Mərkəzdəki təsvirin hər iki tərəfində fiqurlar simmetrik şəkildə yerləşirdi. Tədricən bütün Ön Asiyada yayılmış silindrik möhürlərin üzərindəki təsvirlər sxematik olsa da, üzərindəki insan və heyvan təsvirləri canlı, dinamik şəkildə veriliridi.

**Əsas mətn.** Bütün yaxın Şərqdə olduğu kimi Naxçıvan bölgəsində də Son Tunc-Erkən Dəmir dövründə siyasi, iqtisadi və mədəni sahələrdə kəskin dəyişikliklər baş vermiş, xüsusilə inanc sisteminin dəyişməsi insanların həyatında, dünyagörüşündə, adət və ənənələrində yeni elementlərin yaranmasına səbəb olmuşdu. Bu dövrdə qəbirlərin quruluşu, dəfn adəti, ölünün yanına qoyulan avadanlığın çeşidi və məzmunu dəyişir. Çoxdəfnli və zəngin avadanlıqlı qəbirlər meydana gəlir. Məhz bu dövr qəbirlərində tarix və arxeologiya üçün mühüm əhəmiyyəti olan silindr möhürlər tapılır. Hələlik, Naxçıvan bölgəsində Son Tunc-Erkən Dəmir dövrünə aid, yalnız oyma üsulu ilə hazırlanmış, cəmiyyətin yuxarı təbəqəsinə aid möhürlər aşkar olunmuşdur.

Silindr möhürlər daha çox mübadiləyə çıxarılan məhsulların toxunulmazlığını qorumaq məqsədilə, alqı-satqı müqavilələrinin bağlandığı zaman istifadə olunurdu. Tərəflərin möhürü olma-dıqda yerli məmur onu təsdiq edə bilərdi. Silindrik möhürlər şəxsi olurdu və başqasının ondan istifadə etmək hüququ yox idi. Şəxs öldükdə silindrik möhürü də onunla birlikdə qəbirə qoyulurdu.

Plovdağ və ətrafındakı nekropollardakı daş qutu qəbirlərdə aşkar olunmuş silindr möhürlərin üzərində daha çox rast gəlinən element "həyat ağacının" müxtəlif formalarda təsvirləridir. "Həyat ağacı" daha çox giləmeyvəli, gövdəsi isə həndəsi fiqurlar şəklində verilmişdir. "Həyat ağacı" təsvirləri budaqlarının və meyvələrinin sayına görə də fərqlənir. Mərkəzdəki əsas təsvirin yanında tez-tez rast gəlinən ikinci element qurbanlıq heyvan təsvirləridir [4, 48-49].

Silindr möhürlərin istifadəsi regionların inkişaf səviyyəsindən asılı olmuşdur. Hansı bölgədə silindr möhürün amulet, hansı bölgədə möhür kimi işləndiyini yalnız onların istifadə olunduğu fak-tiki materialların aşkar olunması ilə dəqiq söyləmək mümkündür. Siyasi-iqtisadi inkişaf səviyyəsinə görə demək olar ki, bərabər olan Naxçıvan və Urmiya bölgələrində silindr möhürlərin ottiskləri hələlik aşkar olunmamışdır. Lakin, möhürlərin aid olduğu Erkən Dəmir dövründə bu bölgələrdə xüsusi mülkiyyət geniş inkişaf etmişdi. Ottiskləri hələlik tapılmasa da Naxçıvan, Urmiya gölü hövzəsi və Şərqi Anadolu bölgələrində silindr möhürlərin hüquqi cəhətdən istifadə olunduğunu söy-ləmək olar. Birincisi e.ə. I minilliyin əvvəllərində bu bölgələrdə xüsusi mülkiyyət geniş inkişaf etmişdi. İkincisi Plovdağda silindr möhürlər ölülərin boynundan asılmış vəziyyətdə aşkar olunmuşdu.

Claude Shaeffer qeyd edir ki, Talış-Muğandan tapılmış boz farfor gilindən hazırlanmış silindr möhürlər Şərqdə alçaq dağlıq ərazidən qərbdə Suriya-Fələstinə qədər geniş yayılmışdı. Onun fikrincə, Talış-Muğan bölgəsi Tunc və Dəmir dövrlərində Yaxın və Orta Şərq bölgələri ilə intensiv iqtisadi-mədəni əlaqələr saxlamışdır. Claude Shaeffer talış dolmenlərində (Həsən Zəmin) emallı gil qablarla birlikdə aşkar olunmuş beş silindr möhürün Dəclə və Fərat vadilərində aşkar olunmuş silindr möhürlərdən quruluşuna görə fərqləndiyini və Anri de Morqanın həmin silindr möhürlərin Xaldey və Assuriya silindr möhürlərini təqlid edən yerli istehsalın məhsulu hesab etdiyini qeyd edir [1. s. 408-409].




**Şəkil 1.** Talış-Persiya və Suriya-Fələstindən tapılmış silindr möhürlər (Claude Shaeffer).

Naxçıvan bölgəsindən tapılmış silindr möhürlər azca fərqlə Talış-Muğan bölgəsindən tapılmış möhürlərlə həm materialına, həm də təsvirlərin kompozisiyasına, süjetinə görə oxşardır.

Sadə - üzərində bir sıra heyvan təsvirləri olan möhürlərdə həm heyvan təsviri, həm də bu möhürlərin demək olar ki, əksəriyyətində rast gəlinən

şəbəkəli zolaq, yerinə və quruluşuna görə Talış-Persiya və Suriya-Fələstin möhürlərindən fərqlənir (bax: şəkil-1, 2). Bu möhürlərin kompozisiyası, təsvirlərdəki süjet, formatdakı fərq bu tip möhürlərin yerlərdə hazırlandığını ehtimal etməyə imkan verir.

**Şəkil 2.** Plovdağ və ətrafındakı nekropollardan tapılmış silindr möhürlər.



Maraqlıdır ki, Naxçıvan möhürlərində təsvirlərin kompozisiyası Suriya-Fələstin möhürlərinin kompozisiyası ilə çox oxşardır. Bu fikri hər iki bölgədən tapılmış möhürlərin üzərindəki əsas təsvirləri müşayiət edən köməkçi elementlər də təsdiq edir. Bu köməkçi elementlərdən biri möhürlərin yuxarı hissəsindəki zəncirvari təsvirdir. Zəncirvari təsvirlər quruluşuna görə eyni olub, yalnız halqaların sayına görə fərqlənirlər. Suriya-Fələstin bölgəsindən tapılan silindr möhürlərdə bu zəncirlərdəki halqaların sayı dörd, Naxçıvan bölgəsindəki zəncirlərdə isə halqaların sayı üçdür. Hər iki bölgənin möhürlərindəki zəncirlərin halqaları ortasına iri nöqtələr qoyulmaqla gözə oxşadılmışdır (bax: şəkil 1, şəkil 2). Quruluşuna görə bu zəncirləri “qapalı zəncir” adlandırmaq daha düzgün olardı. Eyni formalı zəncirlər Mesaopotamiyada da aşkar olunur [2, s. 109-110].

Yaxın Şərqdə və Cənubi Qafqazda aşkar olunmuş möhürlərin üzərindəki dağ keçisi, quş və “qapalı zəncir” təsvirləri, demək olar ki, hamısında oxşardır. Lakin insan təsvirlərində, xüsusilə onların geyimlərində müəyyən fərqlər vardır. Maraqlıdır ki, silindr möhürlərin üzərindəki təsvirlər sxematik şəkildə verilsə də onlarda real həyat elementləri qabarıq şəkildə nəzərə çarpır. Bu, xüsusən allahlara qurbanlıq gətirilməsi səhnələrində, insan təsvirlərindəki geyimlərdə daha aydın görünür. Silindr möhürlərdəki kompozisiyaların məzmunu da dinamik şəkildə verilmişdir.

Naxçıvan bölgəsindən aşkar edilən silindr möhürlər üzərində həyat ağacı təsvirləri də diqqəti cəlb edir. Dində, mifologiyada, folklorda həyat ağacı qədim cəmiyyətlərdə həyatın başlanğıcı, əbədi həyat-ölməzlik, məhsuldarlıq rəmzi kimi tanınmışdır. Naxçıvan silindr möhürlərindəki ağac təsvirləri müxtəlif kompozisiyaların mərkəzində verilmişdir. Bir qrup təsvirlərdə ağaclar meyvələri ilə, başqa təsvirlərdə isə düz (gövdə) və kəsişən



xətlərlə (budaqlar və kök) təsvir olunmuşdur. Həyat ağacının kəsişən xətlərlə təsviri Şumer-Akkad mifologiyasında geniş yayılmışdır.

**Şəkil 3.** III Plovdağ. 10 saylı qəbirdə aşkar olunmuş tunc möhürlər.

Qədim türk tayfalarının mifologiyasında və dünyagörüşündə həyat ağacının xüsusi yeri vardır. Türklərdə adını ağac tapınağından götürmüş tayfa da vardır. Ağacərilər tayfası ağaca tapınmış, onu özünün əcdadı hesab etmişdir. Hazırda da pirlərdə - müqəddəs yerlərdə ağaclar əkilir, niyyətlərin qəbul olunması üçün budaqlarına müxtəlif rəngli parçalar bağlanır. Xalq yaradıcılığında, xüsusən xalçaçılıqda həyat ağacı ilə bağlı elementlər geniş yayılmışdır. Burada həyat ağacından həm bütövlükdə, həm də onun ayrı-ayrı hissələrindən – budaqlarından, köklərindən sxematik şəkildə istifadə olunmuşdur. Silindr möhürlərdəki ağac təsvirinin budaqları xalçalarımızda olduğu kimi verilmişdir. Bu isə mədəni varisliyin ən bariz nümunəsidir.

Son Tunc-Erkən Dəmir dövrünə aid silindr möhürlərin müxtəlif tərkibli sərt daşlardan, xüsusi tərkibli gildən hazırlandığını qeyd etdik. Nadir hallarda, silindr möhürlərdən quruluşuna görə kəskin fərqlənən, lakin eyni funksiyanı yerinə yetirən metaldan hazırlanmış möhürlərə də rast gəlinir. III Plovdağ nekropolunun 10 saylı qəbrindən tapılmış tuncdan tökmə üsulu ilə hazırlanan iki möhür xüsusilə diqqətəlayiqdir. Məlumdur ki, tunc möhürləri yalnız hakim təbəqəyə məxsus çox varlı adamlar sifariş edə bilərdilər. Bu möhürlərin aşağısından və yuxarısından başqa dörd uzunsov tərəfi vardır. Yuxarısında asmaq üçün halqası vardır, alt üzündə isə şüa saçan günəş təsvir olunmuşdur. Möhürlərin qarşı üzləri eyni naxışlarla bəzədilib. Möhürlərin iki üzündə həyat ağacı astral simvollarla (yuxarıda günəş diski ilə bitən üç aypara) verilmişdir. Möhürlərin digər iki tərəfində isə simmetrik şəkildə yerləşən Mesopotamiya üslubunda iki svastika (öz) işarəsi vardır (Şəkil 3).

**Nəticə.** Müxtəlif tip möhürlərin aşkar olunması Son Tunc-Erkən Dəmir dövründə Naxçıvan ərazisində dövlətin və xüsusi mülkiyyətin olduğunu təsdiq edir.

Ümumiyyətlə, qədim insanların dini baxışlarını, dünyagörüşünü dərk etmək üçün silindrik möhürlərin mühüm əhəmiyyəti vardır. Naxçıvan ərazisindən daha çox Mitanni və Suriya-Fələstin istehsalı olan möhürlər aşkar olunmuşdur. Bu da, Son Tunc-Erkən Dəmir dövründə Naxçıvanın həmin bölgələrlə sıx iqtisadi-mədəni əlaqələrinin olduğunu sübut edir.

Azərbaycan ərazisində çoxlu sayda müxtəlif tipli arxeoloji materialların (Qabaq Asiya tipli xəncərlərin, Şirli keramikanın, silindr möhürlərin və s.) tapılması göstərir ki, Son Tunc-Erkən Dəmir dövründə bu ərazidə yaşayan

qədim tayfalar yüksək sosial-iqtisadi inkişaf səviyyəsində olmuş, bu da onların inkişaf etmiş sivilizasiya mərkəzləri ilə geniş əlaqələrinə şərait yaratmışdı [ 3, 55, 67].

I Plovdağ, II Plovdağ nekropollarında əldə edilmiş tapıntılar, dəfn adətində və qəbir tiplərindəki oxşarlıqlar Naxçıvanın Aralıq dənizinin şərq sahilində yaşayan tayfalarla iqtisadi-mədəni əlaqələrinin Erkən və Orta Tunc dövrlərindən başlayaraq daha da genişləndiyini deməyə əsas verir.

**Ədəbiyyat**

1. Claude F.A. Shaeffer. Stratigraphie Comparee et Chronologie de Asie Occidentale (III-II millenaries. Oxford University Press, London. 1948, 653 p
2. Renate Marian van Dijk. The Form, Function and Symbolism of Standards in Ancient Mesopotamia during the Third and Fourth Millennia BCE: An Iconographical Study. Stellenbosch University, 2016, 362 c. (https://core.ac.uk/download/pdf/188224884.pdf)
3. Джафаров Гидаят. Азербайджан и Древний Передний Восток: культурно-экономические связи в эпоху поздней бронзы и раннего железа.Баку, «AfpoliqrAF”, 2023, 232 c.
4. Ибрагимли Бахлул. Пловдаг – многотомник древней истории. Научно-популярный журнал “Yol”, 2015, №1(49), с. 41-51.
5. Римуш — Википедия (wikipedia.org)
6. http://wiki-org.ru/wiki/Культура-Шумера

## Summary

## About seals from the necropolis of Plovdag

### Bahlul Ibrahimli, Elvin Aliyev

One of the rare and interesting finds of the Late Bronze and Early Iron ages are cylindrical seals. They were widely used in local and international trade, as well as in the storage of various goods. Cylindrical seals were personal and, despite similar religious plots, had distinctive signs. No two seals were the same. These seals were made of various solid materials, in particular marble, agate, obsidian and other rocks. In Azerbaijan, cylindrical seals were found in large numbers (12 pieces) in the burial monuments of Nakhchivan. It should be noted that the Nakhchivan seals are made mainly of white and cream colored marble and a special clay paste. The length of these seals is 2.8-3.2 cm. Most of the seals (11 pieces) were discovered at the necropolises of Plovdag II, Plovdag III, Mardangol, and Muncuklutepe. All of them were in stone boxes, in front of the dead man's chest. Apparently they were hung around his neck.

The plots on cylindrical seals are different. Earlier seals are dominated by relatively complex religious and cult plots, and the later ones depict different wild animals, birds and geometric ornaments in a row. Late cylindrical seals are not imported, as evidenced by the uniformity of cylinder beads in terms of material, shape and size. They are made by local Nakhchivani craftsmen.

Of particular note are two seals made of bronze by casting. These seals are tetrahedral with a loop on the top. Opposite edges are decorated with identical patterns. On two faces of both seals there are trees of life with astral signs (three crescents ending at the top with a solar disk). And on the other two sides of the seals there are two swastika signs in the Mesopotamian style symmetrically located.

The study of cylindrical seals from the burial monuments of Azerbaijan indicates that in the late Bronze Age, the ancient tribes of Azerbaijan had long cultural, commercial, and economic ties with the countries of Central Asia, and in particular, the states of the eastern coast of the Mediterranean Sea and the Mesopotamia.


**Key words:** Azerbaijan, Nakhchivan, Plovdag, necropolis, stone box, cylinder seal.

## Резьюме

# О цилиндрических печатях из некрополей Пловдага

**Бахлул Ибрагимли, Элвин Алиев**

Одними из редких и интересных находок эпохи поздней бронзы и раннего железа являются цилиндрические печати. Они были широко использованы в местной и международной торговле, а также в хранении разных товаров. Цилиндрические печати являлись личными и, несмотря на схожие религиозные сюжеты, имели отличительные знаки. Ни одна печать не повторяла другую. Эти печати изготовлялись из разных твердых материалов, в частности из мрамора, агата, обсидиана и др. каменных пород. В Азербайджане цилиндрические печати в большом количестве (12 штук) обнаружены в погребальных памятниках Нахчывана. Следует отметить, что Нахчыванские печати сделаны, в основном, из белого и кремового цветов мрамора и специальной глиняной пасты. Длина этих печатей составляет 2,8-3,2 см. Большинство печатей (11 штук) были обнаружены на некрополях Пловдаг II, Пловдаг III, Мярдангёл и Мунджуклутепе. Все они находились в каменных ящиках, перед грудной клеткой покойника. Видимо, они были подвешены на его шее.

Сюжеты на цилиндрических печатях разные. На ранних печатях преобладают относительно сложные религиозные и культовые сюжеты. На поздних печатях изображены в одном ряду разные дикие животные, птицы и геометрические орнаменты. Поздние цилиндрические печати не привозные, о чем свидетельствуют идентичные по материалу, форме и размеру цилиндрические бусы. Они изготовлены местными Нахчыванскими мастерами.

Следует особо отметить две печати, изготовленные из бронзы способом литья. Эти печати четырёхгранные с петлей на верхней части. Противоположные грани орнаментированы идентичными рисунками. На двух гранях обеих печатей нанесены древа жизни астральными знаками (три полумесяца завершаются наверху солнечным диском). А на двух остальных гранях печатей симметрично расположены по два знака свастики в месопотамском стиле.

Изучение цилиндрических печатей из погребальных памятников Азербайджана свидетельствует о том, что древние племена Азербайджана в эпоху поздней бронзы имели продолжительные культурные и торгово-экономические связи со странами Передней Азии, и в частности, государствами восточного побережья Средиземного моря и Междуречья.

**Ключевые слова:** Азербайджан, Нахчыван, Пловдаг, некрополь, каменный ящик, цилиндрическая печать.